DOI: 10.36719/AEM/2007-2020/54/114-116

**Rövlan Abid oğlu Seyidov**
Bakı Mühəndislik Universiteti
seyidovrovlan@gmail.com

# TURİZM SƏNAYESİNİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *turizm sənayesi, xidmət sahələri, səyahət, məhsul, xidmət*
***Key words:*** *tourism industry, service areas, travel, products, services*
***Ключевые слова:*** *индустрия туризма, сферы обслуживания, путешествия, товары, услуги*

## Giriş

Məqalə öz aktuallığı ilə seçilir çünki, turizm sənayesinin müasir vəziyyətin öyrənilməsi və onun inkişaf perspektivlərinin təhlili aktuallığı ilə seçilir. Dövlətlərin iqtisadiyyatı ilk öncə təbii sərvətlər əsasında qurulur və inkişaf edir. Amma bir iş var ki, təbii ehtiyatlar tükənəndir. Bu baxımdan indi bütün ölkələrdə daha çox tükənməz resurslara söykənən iqtisadi layihələrə başlayırlar. Şübhəsiz, turizm sənayesinin predmeti məhz dünya durduqca duran insandır. Demək, sənayenin bu qolu əbədilik qazanmaq üçün birinci pillədə qərarlaşıb. Belə olan təqdirdə isə onun gəlirliliyi də əbədi olmalıdır. Elə bu səbəbdən də müasir dövrdə, necə deyərlər, ekoloji təmiz turizm sənayesinə bütün ölkələrdə diqqət artır.

Turizm sənayesinin inkişafı həm iqtisadiyyatın güclü amili, həm təsirli sosial institut, həm də cəmiyyətdə ictimai rifah və mədəniyyətin göstəricisi kimi insanın həyat səviyyəsinin yüksəlməsinə, mənəvi zənginləşməsinə kömək edir.

Bütün deyilənlərə əsaslanaraq, məqalə mövzusunun kifayət qədər aktual olduğunu bir daha qeyd edərək, bu istiqamətdə tədqiqatların aparılmasını vacib olduğunu deyə bilərik.

Turizm sənayesi dedikdə, səyahəti həyata keçirmək prosesində turisti zəruri olan hər şeylə (xidmət, məhsul və s.) təmin edən müəssisələrin və sahibkarların qarşılıqlı əlaqə sistemi başa düşülür. Turizm sənayesi, turist xidmətlərini və turist tələbatlı malların satışı ilə məşğul olan istehsal, ticarət və nəqliyyat müəssisələrinin məcmusu başa düşülür. Kütləvi turizmin dinamik inkişafı bütün dünyada turizm sənayesinin və xalq təsərrüfatının qarışıq sahələrinin, elm və mədəniyyətin, təhsil sisteminin qarşılıqlı inkişafına səbəb olmuşdur.

Turizm sənayesinin inkişafına elə belə səyahətə çıxanların sayının artması kimi baxmaq olmaz. Turizm xidmət sahəsində ən böyük bölmələrdən birini təşkil edir. Deməli, insanların həyat səviyyəsi yüksəldikcə, beynəlxalq iqtisadi münasibətlər hərtərəfli xarakter aldıqca, mübadilə münasibətləri genişləndikcə, turizm insanlar üçün tarixi zərurətə çevrilmişdir. Bu proses artdıqca qanunauyğun olaraq həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir. Yeni sənaye və xidmət sahələrinə ehtiyac artır. Odur ki, qanunauyğun olaraq turizmin inkişafı dedikdə, ilk növbədə turizm sənayesinin inkişafı nəzərdə tutulur. Burada hər cür nəqliyyat növlərinin, mehmanxana təsərrüfatının, ictimai iaşə obyektlərinin, müəyyən gəzinti, əyləncə təyinatlı obyektlərin, idman komplekslərinin, ekskursiya xidmətləri göstərən təşkilatlar və sairənin məcmusu nəzərdə tutulur (Əlirzayev Ə.Q., Aslanova S.İ. 2006: 36).

İnsanların həyat səviyyəsi yüksəldikcə, beynəlxalq iqtisadi münasibətlər hərtərəfli xarakter aldıqca, mübadilə münasibətləri genişləndikcə, turizm insanlar üçün tarixi zərurətə çevrilmişdir. Bu proses artdıqca qanunauyğun olaraq həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir. Yeni sənaye və xidmət sahələrinə ehtiyac artır. Odur ki, qanunauyğun olaraq turizmin inkişafı dedikdə, ilk növbədə turizm sənayesinin inkişafı nəzərdə tutulur. Burada hər cürə nəqliyyat növlərinin, mehmanxana təsərrüfatının, ictimai iaşə obyektlərinin, müəyyən gəzinti, əyləncə təyinatlı obyektlərin, idman komplekslərinin, ekskursiya xidmətləri göstərən təşkilatlar və sairənin məcmusu nəzərdə tutulur (Qurbanov F. 2007: 79).

Turizm sənayesi dedikdə, səyahəti həyata keçirmək prosesində turisti zəruri olan hər şeylə (xidmət, məhsul və s.) təmin edən müəssisələrin və sahibkarların qarşılıqlı əlaqə sistemi başa düşülür. Turizm sənayesi, turist xidmətlərini və turist tələbatlı malların satışı ilə məşğul olan istehsal, ticarət və nəqliyyat müəssisələrinin məcmusu başa düşülür. Kütləvi turizmin dinamik inkişafı bütün dünyada turizm sənayesinin və xalq təsərrüfatının qarışıq sahələrinin, elm və mədəniyyətin, təhsil sisteminin qarşılıqlı inkişafına səbəb olmuşdur (2). Sanballı maddi-texniki bazaya malik olan turizm sənayesi milyonlarla insanın məşğulluğunu təmin etməklə xalq təsərrüfatı kompleksinin demək olar ki, bütün sahələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Turizm sənayesi turistin istifadə etdiyi geniş xidmət sahələrini birləşdirən təsərrüfat kompleksidir. Turizm sənayesinin inkişafına təsir göstərən amillər aşağıdakılardır:

1. Təbii-ekoloji amillər: - yaxşı iqlim və komfortlu təbii şəraitin olması; - landşaftların və təbiətin diqqətəlayiq yerlərinin olması; - inkişaf etmiş hidroqrafik şəbəkələrin və təbii su hövzələrinin olması; - təbiət obyektlərinin təmiz və yararlı vəziyyətdə olması; - ekoloji vəziyyətin yaxşı olması.

2. Sosial-iqtisadi amillər: - əhalinin əsas kütləsinin yaşayış səviyyəsi, yəni turizmin iqtisadi əlverişliliyi; - vətəndaşların ölkə daxilində və bütün dünya üzrə xarici səyahətlərinə imkan verən sosial azadlıq və hüquqlarının olması; - beynəlxalq əmək bölgüsü əsasında dövlətlər arasında iqtisadi əlaqələrin fəallaşması, beynəlxalq ticarətin genişlənməsi və nəqliyyat vasitələrinin təkmilləşdirilməsi.

3. Siyasi amillər: - turistlərin yaşadıqları ölkənin daxili siyasi stabilliyi; - turistləri qəbul edən ölkənin daxili siyasi stabilliyi; - ölkələr arasında dostluq, mehriban qonşuluq, dinc münasibətlər; -iqtisadi, ticarət, elmi-texniki və mədəni əlaqələr, turizm mübadiləsi üzrə dövlətlərarası və hökumətlərarası əməkdaşlıq sazişləri.

4. Demoqrafik amillər: - əhalinin artımı dünya turizm potensialını yüksəldir; - insanların ömür müddətinin artması və təqaüd yaş həddinin azalması, turizmdə üçüncü yaş qrupuna aid olan insanların çoxalmasına səbəb olur; - etnik turist axını (tarixi vətənə səyahət, mühacirlər, oxşar dilli xalqlar, qarşılıqlı səfərlərlə maraqlananlar və s.); - insanların mədəniyyət və təhsil səviyyələrinin yüksəlməsi (Bilalov B.Ə. 2006: 65)

Ölkənin iqtisadiyyatı inkişaf etdikcə turizm də özünün inkişaf mərhələsində olur, yeni turizm kompleksləri açılır, yeni marşrutlar mənimsənilir, yeni xidmət növləri meydana çıxır. Əksinə, hansı səbəbdənsə ölkə iqtisadiyyatı tənəzzülə uğradığı zaman (siyasi böhran, inflyasiya, təbii fəlakət və s.) turizm sənayesində də tənəzzül nəzərə çarpır. Turizm sənayesi özündə ölkə iqtisadiyyatının bir cox sahələrini birləşdirir.

Turizm sənayesi bir sistemdir və bu sistemin fəaliyyəti ona daxil olan bütün sahələrin ahəngli işləməsi ilə həyata keçirilir. Bu sahələrin inkişafı istehsalat, emaledici sahələrin inkişafı və yeniləşməsindən birbaşa asılıdır. Belə ki, yanacaq-energetika sənayesi, yol-tikinti kompleksləri, otel və iaşə avadanlıqları istehsal və təmir edən müəssisələr, təmir-tikinti müəssisələri, su, kanalizasiya xidmətləri, yüngül sənaye müəssisələri, kənd təsərrüfatı müəssisələri və s. turizm sənayesinin mövcud olmasında, fəaliyyət prosesinin icra edilməsində iştirak edirlər. Turizm sənayesinin xüsusiyyətlərinə aid olan turizm-rekreasion resursların olması, müvafiq səviyyədə infrastrukturun olması və savadlı, peşəkar kadrların olması xüsusi əhəmiyyət kəsb edir. Turizm sənayesi elə yerlərdə inkişaf edir ki, bu yerlər təbii və süni, yəni insan tərəfindən yaradılmış yerlərdən ibarətdir və bu yerlər turistləri müxtəlif fəaliyyət xüsusiyyətləri ilə cəlb edir. Turizm sənayesinin xüsusiyyəti odur ki, o həm material tutumlu məhsul istehsal edir, həm də qeyri-maddi məhsul, yəni xidmət yerinə yetirir. Elə bu əlamətlər turizm sənayesinin əsas xüsusiyyətini təşkil edir (Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. 2002: 127).

Turizm məhsulunun aşağıdakı istehlak xüsusiyyətləri vardır:

- Bütövlük - məhsulun tam olması və müştəri tələbatlarının tam ödənməsi.
- Effektlilik - turistin az xərclə yüksək effekt əldə etməsi
- Etibarlılıq - məhsulun tərkibinin reklamla uyğunluğu, keyfiyyətin informasiya ilə təsdiq olunması.
- Aşkarlıq - məhsulun istehlakı və onun yönümü həm turistə,həm də xidmət personalına məlum olmalıdır.
- Çeviklik - məhsulun və xidmət sisteminin başqa tip istehlakçıya uyğunlaşması.
- Qonaqpərvərlik - insanlarla görüşdən məmnunluq hissini aşılımaq bacarığı, təvzökarlıq, hörmət, personalın gülərüzlülüyü, qonaqlara və turistlərə səmimi münasibətindən ibarətdir (Məmmədov Z.S. 2010: 27).

İnkişaf etməkdə olan ölkələrin turizmin inkişafına artan marağı Azərbaycan Respublikasının simasında da özünü büruzə verir. Turizm sferasının maddi-texniki bazasını, sosial infrastruktur sistemini dünya standartları səviyyəsində təşkil etmək üçün bu sahənin maliyyə təminatı getdikcə yaxşılaşdırılır. Turizmin investisiya təminatının yaxşılaşdırılması dövlət vəsaiti, sahibkarların kapitalı, birgə turist müəssisələrinin yaradılması və respublikaya cəlb edilən xarici investisiyalardan istifadə əsasında həyata keçirilir (Əlirzayev Ə.Q. 2011: 116). Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2010-2014-cü illərdə turizmin inkişafına dair "Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın təsdiq edilməsində məqsəd, Azərbaycanda yüksək iqtisadi, sosial, ekoloji tələblərə cavab verən müasir turizm xidməti sahələrinin formalaşdırılması, turizm sahəsini ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi, qeyri-neft sektorunda turizmin gəlir gətirən sahə kimi inkişaf etdirilməsi, bu sahədə yüksək keyfiyyətli xidmət səviyyəsinin yaradılması və davamlı inkişafın təmin edilməsidir. Buna görə də respublikada bu sahədə elə çevik siyasət yeridilir ki, bu da istehlak dövriyyəsinə yeni resursların cəlb edilməsinə imkan verir. Digər tərəfdən isə, xarici investisiyaların cəlb edilməsi və iqtisadi dövriyyədə istifadə olunması müddətləri biri-birilə elə razılaşdırılmalıdır ki, cəlb olunmuş vəsait gözlənilən səmərəni versin. Turizmin xarici investisiya təminatına regionların inkişaf səviyyəsini, onlarda infrastrukturların vəziyyətini nəzərə almaqla yanaşmaq lazımdır.

Turizmin inkişafına cəlb edilən xarici investisiyanın hər dolları Azərbaycanda yeni aparıcı sahənin əmələ gəlməsi prosesini sürətləndirəcək ki, bu da iqtisadiyyatın dayanıqlı inkişafına kömək edəcəkdir. 2011-ci il Azərbaycanda "Turizm ili" elan edilibdir. Bu, təsadüfi deyil çünki turizm sektorunun inkişafına böyük diqqət göstərilir (Soltanova H.B., Ağakərimov M.M., Babazadə S.İ. 2005: 37). Növbəti illərdə turizm sektoru

Azərbaycanın iqtisadi potensialında mühüm yer tutacaqdır. İnkişaf etmiş, xüsusən də zəngin təbiətə malik olan ölkələrin iqtisadiyyatında turizm mühüm yer tutur. Azərbaycan zəngin ölkədir, turizmin inkişafı üçün gözəl yerlər vardır və biz bu zəngin imkanlardan lazımınca səmərəli qaydada istifadə etməliyik. Ölkəmizdə xidmət sektoru inkişaf edir, indiki dövrdə xidmət sektoruna qoyulan xarici və daxili investisiyalar xüsusi əhəmiyyət kəsb edir.

## Nəticə

Nəticə olaraq deyə bilərəm ki, müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Azərbaycanda da bu sahənin inkişafına ciddi diqqət göstərilməkdədir. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir.

Azərbaycan kontekstində də ölkənin diversifikasiyası, regionların inkişafı üçün məhz bu sənaye həlledici əhəmiyyət kəsb edir. Turizmdə Azərbaycanın rəqabət imkanları çox yüksəkdir. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Bununla bərabər, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 10 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə təmin olunur.

## Ədəbiyyat

1. «Turizm fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu. Azərbaycan, 1999, 27 iyul.
2. «Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə»nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı, 20 iyun 2008.
3. Bilalov B.Ə. (2006) Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı.
4. Əlirzayev Ə.Q. (2011) Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı.
5. Əlirzayev Ə.Q., Aslanova S.İ. (2006) Turizmin inkişafının sosial - iqtisadi problemləri, Bakı, Adiloğlu.
6. Qurbanov F. (2007) Turizmin əsasları. Bakı.
7. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. (2002) Beynəlxalq turizmin coğrafiyası. Bakı.
8. Məmmədov Z.S. (2010) Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı.
9. Soltanova H.B., Ağakərimov M.M., Babazadə S.İ. (2005) Mehmanxana təsərrüfatı. Bakı.

## Current situation and development prospects of tourism industry

**Summary**

The article examines the current state of the tourism industry and analyzes the development prospects in detail. Development of the tourism industry in our country is one of the priorities of state policy. The tourism industry in our country has great prospects. There are wide opportunities for the development of most types of tourism. The rapid socio-economic progress achieved in recent years has opened up new opportunities for the comprehensive development of this area. The main goal is to make tourism the most sustainable, effective and competitive sector of the country's economy. It should be noted that the state budget will be increased by 2025-2030 due to the development of the tourism sector.

## Современное состояние и перспективы развития туризма

**Резюме**

В статье анализируется современное состояние индустрии туризма и детально анализируются перспективы развития. Развитие индустрии туризма в нашей стране является одним из приоритетов государственной политики. Индустрия туризма в нашей стране имеет большие перспективы. Существуют широкие возможности для развития большинства видов туризма. Быстрый социально-экономический прогресс, достигнутый в последние годы, открыл новые возможности для всестороннего развития этой области. Основная цель - сделать туризм наиболее устойчивым, эффективным и конкурентоспособным сектором экономики страны. Следует отметить, что государственный бюджет будет увеличен к 2025-2030 годам за счет развития туристического сектора

**Rəyçi: dos. M.Yolciyev**

Göndərilib: 20.05.2020 Qəbul edilib: 23.05.2020